# Peşə bayramı qeyd olunub

Martın 28-də Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 ili tamam olub.

Ümummilli lider Heydər Əliyevin 1997-ci il martın 23-də imzaladığı sərəncamla hər il 28 mart Azərbaycan Respublikasının təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir.



Ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında dövlətçiliyimizin, milli maraqlarımızın etibarlı şəkildə qorunması və təhlükəsizliyi sahəsində görülən işlərin nəticəsində Azərbaycan hazırda dünyada ən sabit ölkələrdən birinə çevrilib. Bu gün xalqımızın milli mənafeinin, təhlükəsizliyinin, sabitliyin və əmin-amanlığın qorunmasında DTX-nın xüsusi rolu var.

Dövlət Təhlükəsizliyi Xidmətinin Qəbələ Rayon Şöbəsinin işçiləri də martın 28-də peşə bayramlarını qeyd edib. Tədbir iştirakçıları həmin gün ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, ulu öndərin işıqlı xatirəsinə öz ehtiramlarını bildiriblər.

Dövlət Təhlükəsizliyi Xidməti orqanlarının peşə bayramında Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri də iştirak ediblər.

**Qüdrət SƏMƏDOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# Hədiyyələr təqdim etmişlər

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində Novruz bayramı münasibəti ilə bayram şənliyi keçirilmişdir.



Tədbirdə mərkəzin qeydiyyatında olan uşaqlar, onların valideynləri, fəal gənclər və könüllülər iştirak etmişlər.

Tədbirdə bayramın personajları Kosa, Keçəl və Bahar qız əyləncəli məzhəkələr, folklor nümunələri ilə iştirakçılara maraqlı anlar yaşatmışlar.

Uşaqların səsləndirdikləri bayram nəğmələrini, şeirləri və ifa etdikləri milli rəqsləri tədbir iştirakçıları alqışlarla qarşılamışlar.

Bayram şənliyi uşaqların tonqaldan tullanması və bayram gəzintisi ilə davam etdirilmişdir.

Tədbirin sonunda Kosa və Keçəl uşaqlara bayram hədiyyələri təqdim etmişlər.

**Hökümə İSMAYILOVA,**
**mərkəzin işçisi.**

# Novruz şənliyi

Qəbələ şəhər 3 nömrəli tam orta məktəbdə Novruz bayramı münasibətilə tədbir keçirilmişdir. IV[a] sinfinin rəhbəri Sevda Sədiyevanın təşkilatçılığı ilə keçirilən bayram şənliyi məkanının uşaqlar tərəfindən hazırlanmış dekorasiyası da öz orjinallığı ilə seçilmiş və iştirakçılarda xoş ovqat yaratmışdır.




Şagirdlər novruz şənliyinə məxsus adət və ənənənləri, folklor nümunələrini, oyunları bacarıqla nümayiş etdirmişlər. IV[a] sinfinin şagirdləri Məhəmməd Niftəliyev və Elvin Həsənov Novruzun əsas personajları olan Kosa və Keçəl obrazlarını məharətlə yaratmışlar.

Sonda rayon təhsil şöbəsinin əməkdaşı Məlahət Məmmədova, məktəbin direktoru Ədilə Əliyeva tədbirin təşkilatçılarına və fəallıq göstərən şagirdlərə təşəkkürlərini bildirmişlər.

**Kamilə SOLTANOVA,**
**məktəbin müəllimi.**

# Bayram tədbiri

"Ekspress" Təhsil Mərkəzində Novruz bayramı ilə əlaqədar təntənəli tədbir keçirilib.

Bayram tədbirində təqdim edilən ədəbi-bədii kompozisiyada təhsil mərkəzinin uğurlarından ətraflı söz açılmış, bununla bağlı video çarxlar, slaydlar nümayiş etdirilmişdir.

Rayon icra hakimiyyətinin, təhsil işçilərinin ziyalıların, valideyn və şagirdlərin qatıldıqları tədbirdə xalqımızın qədim tarixini əks etdirən, milli adət və ənənələrimizi özündə birləşdirən Novruz bayramının tarixi, su, od, yel və torpaq çərşənbələrinin mahiyyəti, Novruz atributları haqqında ətraflı məlumat verilib.

Təhsil mərkəzinin rəhbəri Bünyad Şahvələd tədbir iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edib. O, təbrik nitqində zəngin mədəniyyətə malik Azərbaycan xalqının mənəvi dəyərlər sistemində özünəməxsus yeri olan Novruzun bolluq, xeyirxahlıq, gözəllik və humanist ideyalar bayramı olduğunu, dünyadakı bütün azərbaycanlılar tərəfindən milli birliyin nişanəsi kimi qeyd edildiyini bildirib.

Tədbirdə milli adət-ənənələrin gələcək nəsillərə ötürülməsinin və milli mənəvi dəyərlərimizin qorunub saxlanılmasının vacibliyi vurğulanıb.

Bayram şənliyində şagirdlər baharın təravətli nəfəsini özü ilə gətirən Novruza aid mahnılar ifa edib, şeirlər səsləndirib, maraqlı səhnəciklər nümayiş etdiriblər.



Şagirdlərin ifasında milli rəqslər, xalq oyunları, Novruz personajları olan Keçəl və Kosanın məzəli əhvalatları, Bahar qızın gəlişi tədbirə rəngarənglik qatıb.

**"Qəbələ"**
**Səfa Aslanov (foto).**

# 2018-ci il ərzində Qəbələ rayonunun sosial-iqtisadi inkişaf statistikası

**(Əvvəli ötən sayımızda).**

**Təhsil**

Rayonda 4 ibtidai, 11orta və 53 tam ümumtəhsil orta məktəb fəaliyyət göstərir.

Cari dərs ilində fəaliyyət göstərən 68 ibtidai, əsas və orta məktəblərdə 16150 nəfər şagird təhsil alır, 2600 müəllim çalışır tərbiyyəsi ilə məşğul olur. Məktəblərdə şagirdlər 485 kompyuterdən istifadə edir.

Rayonda 22 məktəbə qədər uşaq müəssisəsi vardır ki, bunlarda da uşaqların sayı 780 nəfərdir.

**Səhiyyə**

2019-ci il yanvar ayının 1-i vəziyyətinə rayonda 330 çarpayılıq 6 xəstəxana, 36 tibb və feldşermama məntəqəsi, 9 ambulator poliklinika müəssisəsi fəaliyyət göstərmişdir.

Bu müəssisələrdə 178 həkim, 461 orta tibb işçisi çalışır. Rayonda əhalinin hər 10000 nəfərinə 18,8 həkim, 48,6 nəfər tibb işçisi düşür.

**Nəqliyyat və rabitə**

Yola saldığımız ildə Qəbələdə



avtomobil nəqliyyatı ilə 1306 min ton, əvvəlki illə müqayisədə 42 min və ya 3,3 faiz çox yük daşınmışdır.

2018-ci ildə rayonda 9256 min sərnişin daşınmış, bu da əvvəlki illə müqayisədə 3,8 faiz və ya 345 min sərnişin çox deməkdir.

Rayonun rabitə müəssisəsi tərəfindən 1100 min manatlıq rabitə xidməti göstərilmişdir.

Ötən il rabitə müəssisələrində 102 nəfər işçi çalışmışdır. Onların orta aylıq nominal əmək haqqı 346 manat olmuşdur.

**İstehlak bazarı**

2019-ci ilin yanvar ayın 1-vəziyyətinə rayonun istehlak bazarında əhaliyə 50121 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 188750 min manat olmuş bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz və ya 6915 min manat çox olmuşdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi isə 7,4 faiz və ya 14054 min manat təşkil etmişdir.

**Əmək haqqı, məşğulluq və işsizlik**

2018-cı il ərzində rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 355 manat təşkil etmiş və 2017-ci ilə nisbətən 22,0 faiz artmışdır.

Qəbələ rayon Məşğulluq mərkəzinə 2018-ci ildə 1530 nəfər işsiz vətəndaş qeydiyyata alınmışdır. Qeydiyyata alınanlardan 239 nəfəri qadınlardır. Mərkəz tərəfindən işsiz kimi müraciət edən vətəndaşların öz arzusuna əsasən 541 nəfəri müxtəlif peşələr üzrə işə düzəldilmişdir. Onlardan 128 nəfəri qadındır.

2018-ci il vəziyyətinə Qəbələ rayonunda məşğul əhalinin sayı 50913 nəfər təşkil etmişdir. Məşğul əhalinin 12431 nəfəri muzdla işləyənlərdir. Muzdla işləyənlərin 7007 nəfəri yaxud 56,3 faizi dövlət mülkiyyətində 5424 nəfəri və ya 43,7 faizi isə qeyri dövlət mülkiyyətində fəaliyyət göstərir.

Məşğul əhalinin 75,5 faizi və ya 38482 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 28053 nəfəri və yaxud 72.9 faizi kəndli təsərrüfatlarda, 22,8 faizi yaxud 8774 nəfəri fiziki şəxslər, yerdə qalan 1655 nəfəri və ya 4,3 faizi isə digər sahələrdə çalışanlardır.

**Yeni açılmış iş yerlərinin sayı**

2003-cü ilin oktyabr ayının 1-dən 2019-ci il yanvar ayının 1-nə dək rayonda 18642 yeni iş yeri açılmışdır ki, onun da 16843 daimi iş yerləridir.

**Əhalinin sosial müdafiəsi**

2018 -ci il ərzində üzrə 11226 pensiya işi üzrə 11289 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur ki, onlardan 7476 nəfəri yaşa görə, 2951 nəfəri əlliliyə görə 799 ailə üzrə 862 nəfər isə ailə başçısını itirməsinə görə pensiya almışdır. Pensiyaçılara təyin olunmuş aylıq ümumi pensiya məbləği 2093,7 min manat, 1 pensiya işi üzrə orta aylıq pensiya məbləği 186,51 manat təşkil etmişdir.

5491 ailə üzvünə aylıq 385,2 min manat sosial müavinət, 89 ailəyə ünvanlı sosial yardım ödənilmişdir.

**Rayon statistika idarəsi.**